**14.06.2023: xəbər**

**The 78th Session of ”Assembly of Science and Art"**

On June 12, 2023, the 78th session of the traditional "Assembly of Science and Art" was held at the Downtown Campus of Khazar University. Professor Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and trustees, opened the session and informed about Mehmet Olmez, professor of the Department of Contemporary Turkish Dialects and Literature of Istanbul University School of Literature, invited from Türkiye, and his scientific activities. He noted that professor Mehmet Olmez will be a guest of Khazar University within 3 days and will conduct three seminars on various topics. His topic today is "Hun-Goyturk period Turkish monuments and basic studies".

Professor Mehmet Ölmez made a speech about the scientific research he conducted on this topic. Then the discussions around the topic were continued. Hamlet Isakhanli, Elza Samadova (Khazar University), Zamina Rustambayli (Baku Eurasian University), Taleh Jafarov (ASPU), Shahin Fazil (Institute of History of ANAS), Imamverdi Amirov (Institute of Literature of ANAS), Aybeniz Rahimova (Institute of Manuscripts of ANAS) Solmaz Tohidi (Institute of Oriental Studies of ANAS), Gatiba Vagifqizi (Institute of Linguistics of ANAS), Firdovsiyya Ahmadova (Academy of Public Administration), Bayram Guliyev (Khazar University), Elnara Valiyeva (AUL) and others spoke at the discussions.

At the end, Hamlet Isakhanli thanked Mehmet Olmez and the participants for the interesting speeches.

**“Elm və Sənət Məclisi”nin 78-ci məşğələsi**

2023-cü il iyunun 12-də Xəzər Universitetinin Mərkəz kampusunda ənənəvi “Elm və Sənət Məclisi”nin 78-ci məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı açaraq, Türkiyədən dəvət edilmiş İstanbul Universiteti Ədəbiyyat fakültəsinin Çağdaş türk ləhcələri və ədəbiyyatları kafedrasının professoru Mehmet Ölmez və onun elmi fəaliyyəti haqqında məlumat verdi. Qeyd etdi ki, professor Mehmet Ölmez 3 gün ərzində Xəzər Universitetinin qonağı olacaq və müxtəlif mövzularda üç məşğələ keçirəcək. Onun bugünkü mövzusu “Hun - Göytürk dövrü türkcə abidələr və əsas tədqiqatlar”dır.

Professor Mehmet Ölmez bu mövzu ilə əlaqədar apardığı elmi araşdırmalar haqqında məruzə ilə çıxış etdi. Sonra məruzə ətrafında müzakirələr davam etdirildi. Müzakirələrdə Hamlet İsaxanlı, Elza Səmədova (Xəzər Universiteti), Zəminə Rüstəmbəyli (Avrasiya Universiteti), Taleh Cəfərov (ADPU), Şahin Fazil (AMEA-nın Tarix İnstitutu), İmamverdi Əmirov (AMEA-nın Ədəbiyyat İnstitutu), Aybəniz Rəhimova (AMEA-nın Əlyazmalar İnstitutu), Solmaz Tohidi (AMEA-nın Şərqşünaslıq İnstitutu), Qətibə Vaqifqızı (AMEA-nın Dilçilik İnstitutu), Firdovsiyyə Əhmədova (Dövlət İdarəçilik Akademiyası), Bayram Quliyev (Xəzər Universiteti), Elnarə Vəliyeva (ADU) və digər şəxslər çıxış etdilər.

Sonda Hamlet İsaxanlı maraqlı məruzəyə görə Mehmet Ölmeze və iştirakçılara dərin təşəkkürünü bildirdi.